*Bizim ordumuzun son illər ərzində uğurlu inkişafı göz qabağındadır. Bunu Azərbaycan xalqı bilir, görür. Dünyada orduların reytinqlərini tərtib edən sanballı qurumlar da bunu qeyd edir. Bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclü ordu sırasındadır. Biz bunu yorulmaz fəaliyyət nəticəsində əldə etmişik. Çünki mənim prezident kimi fəaliyyətimdə ordu quruculuğu birinci yerdədir.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



# Peşə bayramın mübarək, qalib Azərbaycan əsgəri

***Hər bir dövlətin gücü onun həm iqtisadiyyatının inkişafı, həm də ordusunun qüdrəti ilə bağlıdır. İqtisadi cəhətdən güclü olan dövlətin ordusu da qüdrətli olar. Müstəqil Azərbaycanın inkişaf etmiş müzəffər Ordusu kimi. Tarixin müxtəlif dönəmlərində Azərbaycan Ordusu nəinki yerləşdiyi regiona, hətta dünyaya səs salmışdı. Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar dövründə müzəffər Azərbaycan əsgəri Yaxın Şərqin ən böyük imperiyasını yaratmışdı. Lakin Nadir şahın ölümündən sonra Azərbaycanın xırda-xırda xanlıqlara parçalanması, daxili ziddiyyətlərin artması, regionda yeni güclərin meydana gəlməsi və torpaqlarımıza hücumlar etməsi nəticəsində XVIII əsrin əvvəllərindən xalqımızın qara günləri başladı. Torpaqlarımızın bütövlüyü pozuldu, bir hissəsi cənubda – İranın tərkibində, bir hissəsi isə Şimalda – çar Rusiyasının əlində qaldı. Şimali Azərbaycan ərazisinin bir hissəsində isə Rusiya məcburi şəkildə Ermənistan dövlətini yaratdı.***

XX əsrin əvvəllərində çar Rusiyası rejiminin dağılması nəticəsində Azərbaycan da müstəqillik qazandı. 104 il əvvəl Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranan, formalaşan ordumuz müstəqil dövlətçiliyimizin qarantı oldu. Lakin dövlət müstəqilliyimizin ömrü uzun sürmədi. Heç iki il olmamış Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal olundu. Yetmiş ildən artıq müstəmləkə taleyini yaşamalı olduq. Əsrin sonlarına yaxın yenidən müstəqil olmaq şansı qazandıq. Buna nail olduq.

1991-ci il oktyabrın 18-də Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Bu, Azərbaycanın müstəqillik sənədi oldu. Müstəqil Azərbaycanın dövlət atributları təsis edildi. Həmçinin ordu yaradıldı. Bu ordu həm də Azərbaycanın ərazilərindən torpaq qopartmaq istəyən Ermənistanla döyüşə-döyüşə formalaşırdı. Bu, Ermənistanın Azərbaycanda apardığı ədalətsiz, işğalçılıq müharibəsi dövrü idi. Ərazi özünümüdafiə taborları, milislər, xalq təcavüzə qarşı döyüşürdü. Birinci Qarabağ müharibəsi ordumun formalaşması dövrünə təsadüf etmişdi…

Həmin vaxtlarda Azərbaycanda separatçılıq meylləri güclənmişdi, dövlətçilikdə səriştəsizlik hökm sürürdü, milli qarşıdurmalar cəmiyyətdə olduqca qorxulu bir vəziyyət yaratmışdı. Bu, vətəndaş qarşıdurmasına səbəb ola bilərdi. Yaranmış vəziyyət Ermənistanın Azərbaycanın ərazisinin 20 faizini işğal etməsinə səbəb olmuşdu…

Xalq təkidlə böyük tarixi şəxsiyyət Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Ulu öndər Bakıya gəldi. Azərbaycana sevgisi, azərbaycançılığı hesabına yaranmış vəziyyətin gərginləşməsinin qarşısını aldı, Surət Hüseynova tabe olan qüvvələrin dövlətçiliyə problem yaratmasına imkan vermədi. Təhlükə sovuşdu…

Bakıya qayıtdıqdan sonra Azərbaycan Ali Sovetinin Sədri seçilmiş Heydər Əliyev gecə-gündüz işləyərək, dövlətimizi çox xətalardan sovuşdurdu. Bunu dəyərləndirən xalq onu yekdilliklə Azərbaycan Respublikasının Prezidenti seçdi. Bu seçim Azərbaycanın dövlətçiliyini birmənalı şəkildə xilas etdi.

Ulu öndər digər sahələrlə yanaşı, ordu quruculuğunu da gərəkli səviyyədə inkişaf etdirdi. Qısa müddətdə ərazi özünümüdafiə taborlarını ləğv etdi, orduda vahid komandanlıq yaratdı. Bunlar Azərbaycan Ordusunun nizami ordu kimi formalaşmasının başlanğıcı idi.

Ordu quruculuğu müxtəlif amillərlə bağlıdır. Böyük tarixi şəxsiyyət Heydər Əliyev ön xətdə, səngərlərdə əsgər və zabitlərlə məsləhətləşir, tövsiyələr verir, xidmətdə fərqlənənləri təltif edirdi. Bu, şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəldir, döyüş əzmini, qələbə ruhunu artırırdı.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ordumuzda və xalqımızda qələbəyə qəti inam yaranmışdı. Dahi şəxsiyyətin çağırışı ilə genişmiqyaslı səfərbərlik keçirilmişdi, hərbi hissələr tam komplektləşdirilmişdi.

1993-cü ilin yanvarın 5-dən 6-na keçən gecə Ali Baş Komandan Heydər Əliyevin sərkərdəliyi ilə Azərbaycan Ordusu Horadiz istiqamətində hücum əməliyyatına başladı. Bu əməliyyat Azərbaycan Ordusunun gücünün, qüdrətinin təsdiqi olacaqdı, Azərbaycan əsgərinin qalibiyyətini təsdiqləyəcəkdi. Əməliyyat nəticəsində Füzuli rayonunun Arazboyu 20 kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi. Bu, ordumuzun döyüş əzmini, qələbə ruhunu ifadə edən Zəfər kimi tarixləşdi…

Ordu quruculuğu dövlət üçün prioritet idi. Ordu ən müasir atıcı silahlarla, uçuş aparatları ilə, silah-sursatla təchiz edilirdi. Zabit kadrları hazırlığına da xüsusi diqqət yetirilirdi. Bunlar hərbi hissələrin tam və bacarıqlı zabit kadrları ilə komplektləşdirilməsində son dərəcə əhəmiyyətli oldu…

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev böyük tarixi şəxsiyyət Heydər Əliyevin siyasi kursunu ordu quruculuğu istiqamətində də uğurla davam etdirir. Ordumuzun silahlanması da, döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi də, ən müasir silah-sursatla təchizatı da dövlətin ən çox diqqət yetirdiyi sahələrdəndir.

Vətən müharibəsinə kimi ön xətdə yeni hərbi hissələrin tikilib istifadəyə verilməsi, müxtəlif təyinatlı təlimlərin, o cümlədən bu sıradan beynəlxalq təlimlərin keçirilməsi ordunun döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində əhəmiyyətli oldu. Vətən müahribəsi ərəfəsində beynəlxalq rəngli hərbi ekspertlərinin rəyinə görə Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusu sırasına yüksəldi.

Azərbaycanda ordu quruculuğu daim dövlətin diqqət mərkəzində oldu. Həm döyüş, həm də mənəvi hazırlıq səviyyəsi bir-birini tamamlamaqla istər ayrılıqda, istərsə də vəhdətdə aparılır.

Ermənistan beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələri yerinə yetirmirdi, yeni ərazilər işğal etmək niyyəti ilə müxtəlif miqyaslı həmlələr, hücumlar edir, regionda mövcud status-kvonu saxlamağa çalışırdı. Azərbaycan Ordusu bu təxribatların qarşısını qətiyyətlə alırdı.

2020-ci il sentyabrın 27-də Ermənstan silahlı birləşmələrinin hücumunun qarşısı da alındı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin döyüş əmri ilə əks-hücuma keçən ordumuz Vətən müharibəsinə başladı və düşmənin işğal müddətində yaratdığı müdafiə sədlərini darmadağın etdi.

Mövqe qələbələri qazanıldıqca ordumuzun da, xalqımızın da qələbəyə inamı artırdı. Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqa müraciətində dedi: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik". Bu fikirlər Azərbaycan əsgərinin döyüş əzmini də kükrətdi, qələbə ruhunu da.

Suqovuşanı (3 oktyabr), Cəbrayıl şəhərini (4 oktyabr), Füzuli şəhərini (17 oktyabr), Zəngilan şəhərini (20 oktyabr), Şuşa şəhərini (8 noyabr) azad etdi. 8 noyabr Vətən müharibəsini sonlandırdı – Şuşada düşmənə açılan atəş Vətən müharibəsində sonuncu güllə oldu.

Ermənistan ordusunun hərbi qulluqçusu Andrey Nalbandyan Azərbaycan əsgərləri barədə belə yazır: "Yaxın məsafədən atışa girən dostlarım düşmənin qeyri-insani inadkarlığını qeyd edirlər. Avtomatla çiynindən vururdun, amma döyüşməyə davam edirdilər – onlar terminator kimi irəliləməyə davam edirdilər. Sanki zombi ordusu idi". Düşmənin bu etirafı ordumuzun necə əzmlə vuruşduğunun təsdiqidir...

Zəfər ictimaiyyətə də, Azərbaycanı sevən dövlətlərə də gözəl könül xoşluğu yaşatdı. Xalqımız ordumuzun qazandığı bu tarixi Qələbəni əbədi olaraq yaşadacaq.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi fikirləri hamımız qürurla yaşadırıq: “Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heş vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və düşməni



torpaqlarımızdan qovduq”.

Qazanılan Zəfər Azərbaycan Ordusunun gücünün, qüdrətinin təsdiqi kimi tarixləşdi. Dünyanın iri dövlətləri, məğlub dövlət və onun havadarları gördü ki, Azərbaycan Ordusu regionun ən güclü ordusudur. Dünyanın hərbi ekspertləri də Azərbaycan Ordusunun Zəfərinə heyrətləndiklərini etiraf edirlər.

Ordumuz yeni tarixi bir mərhələdədir. Bu mərhələ qüdrət, güc, qalibiyyət, Zəfər mərhələsidir. Yeni inkişaf mərhələn mübarəkdir, Azərbaycan Ordusu! Xalq sənə inanır, güvənir, Azərbaycan əsgəri!

**Səbinə XASAYEVA,**
**Milli Məclisin deputatı**